**Sərvər Alıcan oglu Abbasov**

**UOT: 338.1; JEL: A13.**

# Dövlət - xüsusi biznes tərəfdaşlığı: nəzəriyyə, təcrübə və perspektivlər

***Xülasə***

*Məqalədə dövlət-xüsusi biznes tərəfdaşlığının (DXT) mahiyyəti, bu mexanizmdən istifadənin üstünlükləri və məhdudiyyəti açıqlanmışdır. Dövlət-xüsusi biznes tərəfdaşlığının formalaşması prosesi və tərəfdaşlığın bu formasının tətbiqinin xarici təcrübəsi, həmçinin Azərbaycanda DXT-ın tətbiqi praktikası təhlil edilmişdir. İdxalın əvəzlənməsinin stimullaşdırılması aləti kimi dövlət-xüsusi biznes tərəfdaşlıq mexanizminin tətbiqi imkanları müəyyənləşdirilmişdir.*

***Açar sözlər:*** *dövlət-xüsusi sektor tərəfdaşlığı, dövlət və xüsusi biznesin qarşılıqlı fəaliyyəti, idxalın əvəzlənməsinin stimullaşdırılması aləti, standart yanaşma, tərəfdaşlıq mərhələsi, saziş*

## Giriş

Dünya iqtisadiyyatının qloballaşması şəraitində dövlətin strateji məqsədlərinə və iqtisadi hədəflərinə nail olunması xüsusi bizneslə qarşılıqlı münasibətləri aktivləşdirmədən, özəl sektorla tərəfdaşlığı inkişaf etdirmədən mümkün deyil. Bununla əlaqədar dövlət və xüsusi biznesin fəaliyyət mexanizmlərinin yaradılması dövlətin effektiv iqtisadi strategiyasının formalaşmasının, milli iqtisadiyyatın cəlbediciliyinin artırılmasının, innovasiya fəaliyyətinin, istehsal və sosial infrastrukturların inkişafının, eləcə də ölkənin rəqabətqabiliyyətinin yüksəldilməsinin ən vacib şərtidir. İqtisadi tənəzzül şəraitində yeni təşkilati mexanizmlərin, xüsusilə dövlət və özəl sektorun qarşılıqlı fəaliyyət institutlarının yaradılması ölkədə genişmiqyaslı islahatların həyata keçirilməsinə, sahibkarlıq fəaliyyətinin təşkilinə, zəruri istehsal və sosial infrastrukturların formalaşmasına imkan vermişdir. Dünyada belə qarşılıqlı fəaliyyət mexanizminin ən geniş yayılmış forması kimi dövlət-xüsusi tərəfdaşlıq (DXT) çıxış edir. Mövcud resurslardan daha səmərəli istifadə edilməsi və iqtisadiyyatın davamlı inkişafı baxımından dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizminin tətbiqi ilə bağlı məsələlər xüsusi aktuallıq kəsb edir və onların elmi tədqiqinə böyük ehtiyac vardır.

## Dövlət – xüsusi biznes tərəfdaşlığının konseptual əsasları

Dövlət – xüsusi biznes tərəfdaşlığı (DXT) iştirakçılar arasında risklərin, məsuliyyətin və gəlirin adekvat bölüşdürülməsini, eləcə də dövlətin nəzarəti altında saxlanılması şərtilə özəl sahibkarlıq subyektləri tam, yaxud qismən dövlət sektoruna aid ənənəvi xidmətlər göstərmələrinə görə məsuliyyət daşımalarını nəzərdə tutan qarşılıqlı fəaliyyətdir. Dövlət - xüsusi biznes tərəfdaşlığının yaradılmasını şərtləndirən səbəblər aşağıdakılardır:

- ✓ sosial əhəmiyyətli layihələrin reallaşdırılması, yaxud dövlət mülkiyyətində olan obyektlərin saxlanılması üçün dövlət büdcəsi vəsaitlərinin çatışmaması;
- ✓ DXT iştirakçılarılndan hər hansı birinin sahibkarlıq fəaliyyətində vergi güzəştləri şəklində iqtisadi səmərə, dövlət və bələdiyyə mülkiyyətində olan obyektlərin istifadəsindən gəlir almağa cəhd etməsi.

Sosial-iqtisadi inkişafı ləngidən əsas amillərdən biri infrastruktur sahələrin kifayət qədər inkişaf etdirilməməsidir, hansıki yeni infrastruktur obyektlərin yaradılması üçün investisiyanın olmaması və həm də müasir idarəetmə resurslarının və innovasiya texnologiyalarının çatışmamsı ilə əlaqədardır. İnfrastruktur layihələrin reallaşdırılması üçün



©Sərvər Alıcan oglu Abbasov i.e.d., prof. Bakı Dövlət Universiteti
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

investisiyanın və innovasiya texnologiyalarının cəlb edilməsinin ən effektiv yollarından biri DXT mexanizmlərindən istifadə sayılır. Məhz DXT yeni infrastruktur obyektlərin yaradılmasını, dövlət mülkiyyətində olan və bütövlükdə iqtisadiyyatın inkişafı üçün mühüm əhəmiyyət kəsb edən mövcud infrastrukturların modernləşdirilməsini maksimum sürətləndirməyə imkan verir. Dövlət – xüsusi sektor tərəfdaşlığının təməl prinsipləri aşağıdakılardan ibarətdir [1, s.213]:

- DXT müqavilə tənzimlənməsinin prioritetliyi;
- Tərəfdaşlıq münasibətlərinin aşkarlığı və şəffaflığı;
- DXT risklərinin sığortalanması;
- DXT sazişi iştirakçılarının bərabərliyi;
- DXT sazişinin bağlanmasının müsabiqə qaydası;
- DXT tərəflərinin muxtariyyəti;
- DXT sazişinin bağlanmasında və onun şərtlərinin müəyyənləşdirilməsində müstəqillik.

DXT çərçivəsində konkret məsələlərin çözülməsi xarakterindən asılı olaraq tərəfdaşlığın təşkilati, maliyyələşdirilmə və kooperasiya modelləri fərqləndirilir. Dünya praktikasında dövlət və xüsusi biznes arasında tərəfdaşlıq münasibətlərinin reallaşdırılmasının müxtəlif formaları, tipləri və variantları mövcuddur. DXT-nın tiplərini iki əsas kateqoriyaya ayırmaq olar: institutsional DXT, hansıki dövlət və özəl sektor iştirakçıları tərəfindən yaradılan birgə müəssisələrin bütün formalarını əhatə edir, kontrakt DXT. Dövlət - sektor maliyyələşməsində uzun illər tətbiq edilən kontesessi DXT münasibətlərinə daha çox uyğun gəlir. Xüsusi sektorda qəbul edilən prinsiplərin dövlət sektorunda tətbiqi zamanı həyata keçirilən maliyyələşmə və "nou-xau" konteksti DXT maliyyələşməsinin formasına çevrilmişdir. Bu amil kontrakt təşkilati olaraq dövlət sektorundan özəl müəssisəyə obyekt (daşınmaz əmlak), yaxud xidmət göstərmək hüququ verir, müəyyən vaxt ərzində DXT idarəetməsi həyata keçirir, həmçinin kontrakt xidmət göstərmək üçün obyekt layihələndirir və inşaa edir. DXT-ın formalarını aşağıdakı kimi təsnifləşdirmək olar:

- Müəyyən ictimai zəruri və faydalı fəaliyyət növlərini həyata keçirmək üçün dövlət və xüsusi şirkət arasında bağlanmış inzibati müqavilə kimi kontrakt;
- İcarə və lizinq formasında müqavilə;
- Kontekst sazişi. Burada xüsusi investisiyanı iqtisadi, mənzil-kommunal və sosial infrastrukturların modernləşdirilməsinə cəlb etmək qabiliyyəti vardır;
- Məhsulun bölüşdürülməsi haqqında saziş;
- Müştərək müəssisə.

DXT müəyyən edilmiş müvəqqəti çərçivə və büdcə vəsaitlərinə uyğun olaraq layihələrin reallaşdırılmasında öz kapitalı və idarəetmə üsulundan istifadə edən xüsusi sektorla konrakt bağlamaq üçün dövlət sektorunun tətbiq etdiyi innovativ metoddan istifadə edir. Bu zaman dövlət sektoru əhalinin zəruri xidmətlərlə təmin edilməsinə görə məsuliyyət daşıyır, davamlı iqtisadi inkişafa və əhalinin sosial rifahının yaxşılaşdırılmasına pozitiv təsir göstərir.

**Dövlət – xüsusi biznes tərəfdaşlığı barədə standart yanaşmalar**

Dövlət-xüsusi biznes tərəfdaşlığı sosial-iqtisadi inkişafın üç əsas mərhələsi üzrə reallaşdırılır:

- Başlanğıc mərhələsi;
- Qarışıq tərəfdaşlıq modelinin yaradılması mərhələsi;
- Tərəfdaşlıq modelinin təkmilləşdirilməsi mərhələsi.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Dünyanın bir çox ölkələri, o cümlədən Azərbaycan Respublikası hələ DXT-nın inkişafının başlanğıc mərhələsindədir. Bura dövlət və özəl sektor arasında tərəfdaşlıq münasibətlərinin formalaşması siyasətini və hüquqi bazasının işlənib hazırlanmasını aid etmək olar. Həmin siyasəti reallaşdırmaq, iştirakçılar üçün bazar yaratmaq və qarşılıqlı fəaliyyət sistemi formalaşdırmaqdan ötrü xüsusi orqan yaradılır. İnkişafın başlanğıc mərhələsində dövlət-xüsusi biznes tərəfdaşlığının mənfi cəhəti layihənin reallaşdırılmasının iqtisadi səmərəliliyi haqqında iştirakçıların aydın təsəvvürlərinin olmamasıdır. Bu nöqsanı aradan qaldırmaq üçün artıq bu yolu keçmiş bazar iqtisadiyyatlı ölkələrin qabaqcıl təcrübəsindən istifadə etmək lazımdır. Dövlət – xüsusi biznes tərəfdaşlığı iştirakçıların, investorların, müxtəlif maliyyə orqanlarının, ekspertlərin və məsləhətçilərin maraqlarını düzgün müəyyənləşdirməyə, habelə mövcud resursları və onların mənbələrini aşkarlamağa imkan verir. DXT çərçivəsində dövlət mülkiyyətçilərin hüquqi məsələlərini həll edir, zəmanət və vergi güzəştlərinin verilməsi üçün imkan yaradır, reallaşdırılan layihənin maliyyə borclarını alır və ona nəzarət edir. Biznes subyektləri isə maliyyələşməni həyata keçirir, effektiv idarəetməni, qərarların qəbulunda çevikliyi və operativliyi təmin edir, adamların əməyə yaradıcılıq qabiliyyətini açıqlayır və nəticədə yeni innovasiya məhsullarına əlçatanlığı artırır. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə dövlət-xüsusi biznes tərəfdaşlıq mexanizmi artıq formalaşıb və mütamədi olaraq təkmilləşdirilir. DXT sazişlərinin sayına görə Böyük Britaniya liderdir, hansıki 2015-ci ildə dəyəri 6 milyard avro olan 31 DXT layihələri reallaşdırmışdır. Bu ölkədə risklərin hesablanması sistemi təkmilləşdirilir, kadrların hazırlanmasının yeni sistemi tətbiq edilir, həmçinin layihələrin həyat tsikli artırılır [2, s.365].

Fransa Respublikası qarışıq tərəfdaşlıq modelinin yaradılması mərhələsindədir, yəni DXT bazarı strukturlaşdırılır və təzələnir, maliyyələşdirilmənin yeni mənbələri aşkarlanır, layihənin reallaşdırılmasını tənzimləyən qanunlar qəbul edilir. Qarışıq tərəfdaşlıq modeli Almaniyada da tətbiq edilir. Burada dövlət – xüsusi biznes tərəfdaşlığına planlaşdırma, tikinti, maliyyələşdirmə və layihənin reallaşdırılması haqqında saziş kimi baxılır. DXT çərcivəsində biznes subyektləri öz fəaliyyətində və mənfəət siyasətində bəzi məhdudiyyətlər qoymağa məcbur olurlar, əvəzində isə onlara vergi güzəştləri verilir.

**Dövlət-xüsusi biznes tərəfdaşlığı idxalın əvəzlənməsinin stimullaşdırılması alət kimi**

Azərbaycan Respublikasında müstəqillik qazandığı andan bu günədək idxal məhsullarına tələbatın artması meyli müşayiət edilir. Hərçənd, son illər Azərbaycanın idxal-ixrac əməliyyatlarında saldo müsbətdir, yəni ixrac idxalı üstələyir. Lakin bununla belə ölkə iqtisadiyyatının bütün sfera və sahələrinin inkişafı həm istehsal, həm də istehlak təyinatlı xarici məhsulların idxalından müəyyən dərəcədə aslıdır. Dünya bazarında neftin qiymətinin sürətlə dəyişilməsi, milli valyutanın məzənnəsinin kəskim aşağı düşməsi və əhalinin idxal məhsullarına tələbatının artması şəraitində yerli müəssisələrdə məhsul istehsalının maya dəyəri xeyli artmışdır ki, bu da onların istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinə mənfi təsir göstərmişdir. Şübhəsiz, idxal məhsullarının yerli istehsal hesabına əvəzlənməsi aktual problemdir və onun həlli yollarının axtarılmasını DXT iştirakçıları daim diqqət mərkəzində saxlamalıdırlar. İdxalın əvəzlənməsi nəzəriyyəsi və metodologiyasına xarici iqtisadçı alimlərin əsərlərində baxılmışdır. Məsələn, Amerika iqtisadçısı P.Linder idxalın əvəzlənməsi tempinin beynəlxalq ticarət şəraitinin dəyişilməsinə təsirini öyrənmişdir. A.Kizyevanın əsərlərində idxalın əvəzlənməsi tempinin artırılmasının üstünlükləri və mexanizmləri əsaslandırılmışdır. P.A.Kadoçnikov makroiqtisadi proseslərin idxalın əvəzlənməsinin inkişafına təsirini tədqiq etmişdir. P.R.İsmaqilova region miqyasında idxalı əvəzləyən istehsalın inkişaf istiqamətlərini və mexanizmlərini açıqlamışdır. D.N.Zaytsev idxalı əvəzləyən istehsalın təşkilini regionun sosial-iqtisadi inkişafının prioritet istiqaməti kimi təklif etmişdir. S.İ.Redko ayrı-ayrı əmtəə qruplarının idxalının əvəzlənməsini ölkənin iqtisadi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təhlükəsizliyinin təmin edilməsi amili kimi dəyərləndirmişdir. A.P.Terexov idxalı əvəzləyən sənaye müəssisələri məhsullarının rəqabətqabiliyyətinin yüksəldilməsi problemini tədqiq etmişdir [3, s.180].

Azərbaycanın istehlak bazarının idxal məhsulları üçün açıq olması bir sıra problemlər yaradır. Azərbaycan iqtisadiyyatının xarici istehsalçılardan asılılığının artması bir tərəfdən idxalın dayandırılması halında milli təhlükəsizliyi təhdid edə bilər, digər tərəfdən isə xarici məhsullarla rəqabət aparmaq imkanı olmayan yerli istehsalın inkişafını çətinləşdirə bilər ki, bu da ölkənin təbii-iqlim və coğrafi şəraitilə şərtlənir. Təbii ki, idxalın əvəzlənməsi probleminin həlli böyük məbləğdə maliyyə resursları tələb edir, hansıki yalnız dövlət büdcəsi vəsaitləri hesabına tam ödənilməsi qeyri-mümkündür. Buna görə də idxalın əvəzlənməsini stumullaşdıran müxtəlif iqtisadi alətlərdən, o cümlədən DXT mexanizmindən istifadə edilməlidir.

Cəmiyyət inkişaf etdikcə və sosial-iqtisadi problemlər artdıqca dövlət bəzi funksiyalarını xüsusi sektora vermək məcburiyyətində qalır ki, bu da bir tərəfdən bəzi içtimai vəzifələrin yerinə yetirilməsi üçün əsas sayılır, digər təfədən isə xüsusi şirkətlərin investisiya fəaliyyətində tətbiq edilən alət kifayət qədər cəlbedici olur [4]. İdxalı əvəzedən istehsalın inkişafında dövlət-xüsusi biznes tərəfdaşlığı çərcıvəsində layihələrin reallaşdırması şərtlərindən biri tərəflərin qarşılıqlı münasibətlərinin düzgün qurulmasıdır. Dövlət-xüsusi biznes tərəfdaşlığını tənzimləyən mövcud normativ-hüquqi aktlarda DXT-nın 18-dən çox forması vardır. Bu formalardan hər birinin tətbiqinin iqtisadi səmərəliliyi təhlil edilməli və qiymətləndirilməlidir.

**Azərbaycanda dövlət-xüsusi biznes tərəfdaşlığının inkişaf istiqamətləri**

Azərbaycan hökuməti dövlət – xüsusi sektor tərəfdaşlığının inkişafına xüsusi diqqət yetirir, yəni bu məsələyə dair əhatəli baxışı və siyasi prinsiplərini ehtiva edən konsepsiya səpkili sənəd işləyib hazırlamışdır. Həmin konsepsiya çərçivəsində iqtisadiyyatın müxtəlif sfera və sahələrində dövlət-xüsusi biznes tərəfdaşlığının inkişafı istiqamətində müəyyən işlər görülüb və bəzi sosial layihələr həyata keçirilib. İndi həmin layihələri qısa və lokanik şəkildə açıqlayaq. Azərbaycan Respublikasının brendi olan "ASAN Xidmət" dövlət və özəl sektor arasında tərəfdaşlıq əlaqələrinin xüsusi növüdür. "ASAN Xidmət" vasitəsilə həm dövlət qrumlurına, həm də biznes subyektlərinə aid müxtəlif xidmətlər göstərilir.

"Aqrolizinq ASC" xəttilə fermer təsərrüfatlarına verilən xaricdən gətirilmiş kənd təsərrüfatı texnikası və cins heyvanlar üçün gömrük rüsumunu dövlət öz üzərinə götürür, kübrə və digər kimyəvi maddələr isə dəyərindən 50-75 fazi ucuz qiymətlə satılır. Nəticədə fermer təsərrüfatları lizinq xidmətindən əhəmiyyətli dərəcədə faydalanırlar. "Aqrosığorta haqqında" Azərbaycan Respublikası Qanununda kənd təsərrüfatı məhsullarının sığorta haqqının 50 faizi və risklərdən dəyən ziyanın hamısının dövlət tərəfindən ödənilməsi təsbit edilmişdir. Dövlət-aqrobiznes tərəfdaşlığının bu formasının tətbiqi kənd təsərrüfatının innovativ inkişafına və əhalinin keyfiyyətli, ekoloji təmiz qida məhsulları ilə təmin olunmasına kömək edir. Azərbaycan Dövlət Turizm Agentliyi kənd yerlərində turizm biznesi ilə məşğul olan adamlara, ailələrə, margetinq xidməti göstərir, lazımi məsələhətlər verir və istehsal etdikləri məhsulların satışını təşkil edir. Azərbaycan Respublikası Prezidenti yanında "Gənclər Fondu" ailə biznesilə məşğul olmaq istəyən şəxslərə, xüsusilə əlilliyi olan adamlara aktivlər verir. Dövlət-ailə biznesi tərəfdaşlığının bu formasının tətbiqi özünüməşğulluğun artmasına və aztəminatlı əhalinin real gəlirlərinin çoxalmasına pozitiv təsir göstərir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi gəncləri işə götürən sahibkarlara onların bir il hazırlıq (sınaq) dövründə əmək haqqının 50 faizini subsidiya şəklində verir. Dövlət və özəl sektor arasında tərəfdaşlığın bu formasının inkişafı ölkədə təcrübəsi olmayan gənclərin işlə təmin olunması sahəsində mövcud problemin çözülməsində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

çox böyük rol oynaya bilər. Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda hökumətlə birgə dövlət-özəl sektor tərəfdaşlığının inkişafı mərkəzi yaradıb, biznes strukturları ilə fəal çalışmağa başlayıb. Belə ki, AİB Azərbaycan manatında buraxdıqları istiqrazlardan əldə ediləcək vəsaitləri özəl şirkətlərin tələbatlarını ödəməyə sərf etmək niyyətindədir. Gələcəkdə AİB fəaliyyətini dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi, ticarətin maliyyələşdirilməsi, aqrobiznes, tikinti, bərpa olunan enerji kimi sahələrdə genişləndirməyi nəzərdə tutur. Eyni zamanda AİB ixrac-idxal əməliyyatlarını dəstəkləmək üçün Ticarətin Maliyyələşdirilməsi Proqramı (TFP-Trade Finanse Proqram) həyata keçirir. Bu proqram təkcə banklara və onların müştərilərinə deyil, həm də bütövlükdə Azərbaycan iqtisadiyyatına xeyli üstünlüklər qazandırır. Mövcud maliyyə problemlərini aradan qaldırmaq üçün AİB qeyri-bank maliyyə qrumları da daxil olmaqla əlverişli vasitəçilər üzərindən, xüsusilə də kənd təsərrüfatı məhsullarının istehsalı və emalı kimi qeyri-tsikl sahələrdə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlar dəstəkləyir.

**Nəticə**

Dövlət-xüsusi biznes tərəfdaşlığı tərəflər arasında risklərin, məsuliyyətin və gəlirlərin optimal bölüşdürülməsini, sosial və infrastruktur layihələrin effektiv reallaşdırılmasını nəzərdə tutan qarşılıqlı fəaliyyət növüdür. Bazar iştirakçılarının dövlət-xüsusi biznes tərəfdaşlığı mexanizminin inkişafı haqqında zəruri informasiyalara olan tələbatının ödənilməsi, vahid informasiya bazasının formalaşdırılması, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi və innovativ idarəetmə sisteminin tətbiq edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində "Dövlət-Xüsusi Tərəfdaşlıq Mərkəzi" yaratmaq vacibdir. Layihələrin reallaşdırılması üçün əlavə investisiya resurslarının cəlbedilməsinə imkan verən DXT forması idxal məhsullarının yerli istehsal hesabına əvəzlənməsinin ən stimullaşdırıcı aləti hesab edilir. Bu məqsədlə bu kimi tədbirlərin həyata keçirilməsi zəruridir: idxalı əvəzedən yerli ictehsalın inkişafını tələb edən təsərrüfat fəaliyyəti sahələrinin siyahısını müəyyənləşdirmək, idxalın əvəzlənməsinə dair layihələrin reallaşdırılmasında DXT-nın konkret formasının effektivliyini təhlil etmək və qiymətləndirmək.



**Ədəbiyyat**

1. Пушкин А.В., Аннатов А.А. Государственно-частное партнерство. Механизм реализации. М.: 2010.
2. Экономика и предпринимательство. 2017, №2.
3. Экономика и предпринимательство. М., 2015, №6.
4. Антонова К.А. Государственно-частное партнерство как фактор социально-экономического развития России: автореферат диссертации кандидат экономических наук. М., 2012.
5.Емедьянов Ю.С. Государственно-частное партнерство в инновационной сфере: зарубежный и российский опыт. М.: Либро ком, 2012.
6. Фомина В.П., Афонин С.Н. Государственно-частное партнерство и возможности его развития в регионах и муницальных образованиях. Микроэкэномика, 2013, №4.
7. Федосенко Е.А. Государственно-частное партнерство в сфере образования: институциальное основания и направления развития. Теория и пратики сервиса: экэномика, социальная сфера, технологии. 2012, №2.
8. Клочко Е.Н., Бугаенко В.Э. Государственно-частное партнерство как механизм создания зон интенсивного развития человечкского капитала в ЮФО. Экономика и предпринимательство. М.2016, №6.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**_Сарвар Альджан оглу Аббасов_**
**_Государственно-частное партнерство: теория, опыт и перспективы_**
**_Аннотация_**

*В статье раскрыта сущность государственно-частного партнерства, преимущества и ограничения использования данного механизма. Проведен анализ процесс формирования государственно-частного партнерства и зарубежного опыта применения данной формы партнерства, а также практика применения ГЧП в Азербайджане. Определены возможность применения механизм государственно-частного партнерства как инструмента стимулирования импортозамещения.*

***Ключевые слова:*** *государственно – частное партнерство, взаимодействие государства и частного бизнеса, инструмент стимулирования импортозамещения, стандартные подходы, стадии партнерства, соглашение.*

**_Server Alican son Abbasov_**
**_State-specific business partnership: theory, practice and perspectives_**
**_Resume_**

*The article explains the entity of public-private partnerships, the benefits and limitations of using this mechanism. The process of formation of public-private partnerships and the foreign experience of applying this form of partnership, as well as the practice of implementing public-private partnerships in Azerbaijan were analyzed in the article. The possibilities of introducing the mechanism of state-private business partnership as a tool to promote import substitution has been identified.*

***Key words:*** *public-private partnerships, interaction of state and private business, tool for stimulating import substitution, standard approach, partnership stage, agreement*



***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 09.09.2019.***
***Çapa qəbul olunub: 12.09.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*